

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (23.001)

15 may 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verilib. Bildirilib ki, bu liman birinci kateqoriya limanlar üçün müəyyən edilmiş texniki tələblərə uyğun layihələndirilib və inşa olunub. Liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır.

Prezident İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsini bildirən düyməni basıb.

Azərbaycan Prezidenti İlham Əliyev kompleksin ərazisini gəzib.

Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı limanın əməkdaşları və inşaat şirkətlərinin nümayəndələri ilə görüşüb.

Azərbaycan Prezidenti görüşdə çıxış edib.

## Naxçıvan şəhərində yeni sənaye müəssisəsi istifadəyə verilmişdir

Mayın 14-də "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış tam avtomatlaşdırılmış plastik boru, profil və aksesuarların istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

"Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının sədri Vüqar Abbasov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafına hərtərəfli qayğı göstərilir. Müasir istehsal sahələri fəaliyyətə başlayır, yeni iş yerləri açılır, tələbat, əsasən, daxili imkanlar hesabına ödənilir. Bu gün istifadəyə verilən plastik boru, profil və aksesuarların istehsalı müəssisəsi də özəl sektorun inkişafına göstərilən qayğı nəticəsində yaradılmışdır. Müəssisənin yaradılmasına 27 milyon manat vəsait sərf olunmuşdur ki, onun 5 milyon manatı Sahibkarlığa Kömək Fondunun, 22 milyon manatı isə müəssisənin daxili imkanları hesabına ödənilmişdir. Vüqar Abbasov sahibkarlığın inkişafı üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı sahibkarlığın inkişafından asılı olacaqdır"*** fikrini xatırladaraq demişdir: Azərbaycanda sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Ölkə Prezidenti tərəfindən bu sahənin inkişafı ilə bağlı qanun, sərəncam və digər normativ-hüquqi aktlar qəbul olunmuşdur. Dövlət tərəfindən kreditlərin verilməsi isə sahibkarlığın inkişafı üçün daha geniş imkanlar açmışdır. Yaradılan şəraitin nəticəsidir ki, artıq ölkəmizdə sahibkarlar sinfi formalaşıb. Bu gün yeni sənaye müəssisəsinin istifadəyə verilməsi də sahibkarlığa göstərilən qayğının daha bir ifadəsidir.




Ali Məclisin Sədri demişdir: Şirkət ilk fəaliyyətə başladığı dövrdə uğur qazana bilməsəydi, bu gün yeni istehsal sahələrini yaratmaq da mümkün olmayacaqdı. Ölkəmizdə sahibkarlığın inkişafı üçün yaradılan şərait imkan verdi ki, şirkət fəaliyyətini daha da genişləndirsin. Yeni sənaye müəssisəsi yaradılarkən həm Sahibkarlığa Kömək Fondundan ayrılan kreditdən, həm də sahibkarın öz vəsaitindən istifadə olunmuşdur.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə etdiyinə və yeni sənaye müəssisəsinin fəaliyyətə başlamasına görə sahibkara və kollektivə təşəkkür edərək demişdir: Sahibkarlıq sinfi o yerdə formalaşır ki, orada sahibkarlığın inkişafına dövlət qayğısı göstərilir, bu sahə ilə bağlı müvafiq qanunlar qəbul və icra olunur, eyni zamanda istehsal olunan məhsulların bazarı vardır. Yeni müəssisə də ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti üçün yaradılan şəraitdən bəhrələnilərək qurulmuşdur. Müəssisənin istehsal etdiyi məhsulların daxili bazarda satışı üçün hərtərəfli şərait var. Bu gün tələbatın yerli istehsal hesabına ödənilməsi və yeni iş yerlərinin açılması qarşıda duran əsas vəzifələrdəndir. Müəssisənin istehsal gücü ayda 1500 tondur. İstehsal olunan məhsullara olan daxili tələbat isə ayda 250 tondur. Tələbatdan artıq istehsal olunan məhsullar xarici ölkələrə ixrac olunacaq və ölkəmizin digər bölgələrində satışı həyata keçiriləcəkdir. Bu da muxtar respublikamızın ixrac potensialının daha da artmasına və idxaldan asılılığın azalmasına imkan verəcəkdir. Eyni zamanda müəssisədə ilkin mərhələdə 300-ə yaxın yeni iş yerinin açılması və gələcəkdə işçi sayının artması ailələrə dəstəkdir. Bu gün Naxçıvan Muxtar Respublikasında işsizlik problemi yoxdur. Yeni iş yerlərinin açılması hər ailədə bir neçə nəfərin işlə təmin olunmasına imkan verir. Bu da ailələrin yaşayış səviyyəsinin yaxşılaşmasına şərait yaradır.

Ali Məclisin Sədri demişdir: Daxili bazarda satılan yerli məhsullar keyfiyyətli və rəqabətqabiliyyətli olmalıdır. Vətəndaşları keyfiyyətsiz məhsul almağa məcbur etmək olmaz. Əgər daxili bazara keyfiyyətli yerli məhsullar çıxarılmasa, o zaman insanlar xarici bazarlara üz tutacaqlar. Ona görə də keyfiyyət amilinə ciddi diqqət yetirmək lazımdır. Dövlət sahibkara qayğı göstərirsə, sahibkar da bundan istifadə edərək səmərəli fəaliyyət göstərməli, öz işçilərinin qayğısına qalmalı, onların sosial problemləri ilə məşğul olmalıdır. İşin bu cür qurulması, son nəticədə, keyfiyyətli məhsul istehsalına imkan verir. Muxtar respublikanın aid təşkilatları bundan sonra da sahibkarlıq müəssisələrinin fəaliyyəti üçün lazımi şərait yaratmalı, daxili bazar qorunmalı, keyfiyyətli məhsul istehsalı diqqətdə saxlanmalıdır.

*Ardı 2-ci səhifədə*



Ali Məclisin Sədri müəssisədə keyfiyyətli məhsul istehsal olunacağına əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamış və istehsal prosesi ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 14 min kvadratmetr sahəsi olan müəssisə istehsal sahəsindən, idarəetmə və iş otaqlarından, laboratoriya, hazır məhsul və xammal anbarlarından ibarətdir. İstehsal sahəsində tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılmışdır. İstehsal gücü ayda 1500 ton olan müəssisədə müxtəlif qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su boruları, eləcə də polietilen əsaslı sərt sulama boruları, PVC əsaslı lambir, saydinq və aksesuarlar, PVC əsaslı yumşaq rezin suvarma şlanqları, kanalizasiya boruları, müxtəlif boru fitinqləri olmaqla, 7 növdə və 160 çeşiddə məhsul istehsal olunur. İstehsal olunan hər məhsul növünə beynəlxalq sertifikat verilmişdir.

Laboratoriyada məhsulların keyfiyyətinə xüsusi diqqət yetirilir. Quraşdırılan müasir avadanlıqlar məhsulların təzyiqə, istiliyə və zərbəyə davamlılığına, o cümlədən xammalın tərkibinin yoxlanmasına imkan verir. Müəssisənin Bakı şəhərində və rayonlarda satış mərkəzləri yaradılmışdır. Həmçinin məhsullar xarici ölkələrə ixrac olunacaq, gələcəkdə ixracyönümlü məhsulların sayını artırmaqla yeni bazarlara çıxış imkanları yaradılacaqdır.

Müəssisənin ərazisində təhlükəsizlik kameraları quraşdırılmış, işçilər nahar yeməyi, xüsusi geyim forması və nəqliyyat xidməti ilə təmin olunmuşlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Torpaqların su təminatı yaxşılaşdırılır

2018-ci ilin aprel ayında Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabe təşkilatları tərəfindən su itkisinin qarşısını almaq məqsədilə kanal və arxlarda lildəntəmizləmə işləri aparılmış, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün yeni drenaj kanalları qazılmış, hidrotexniki qurğularda təmir-bərpa işləri görülmüşdür. Bu dövrdə 24 kilometr beton və torpaq kanal təmizlənmiş, 6 kilometr yeni suvarma boru xətti çəkilmişdir.

Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 410 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 6 min metr magistral və paylayıcı boru xətti çəkilmiş, 60 hidrant və 60 paylayıcı hovuz quraşdırılmışdır.

"Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində də işlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Ötən ay uğurla başa vurulub



Muxtar respublikada dəmir yolu nəqliyyatından istifadə sahəsində ardıcıl tədbirlər görülür, maddi-texniki baza gücləndirilir. Yaradılan şəraitin nəticəsidir ki, aprel ayında Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 11 min tondan artıq müxtəlif təyinatlı yük daşınmışdır. Hesabat dövründə Ordubad-Şərur və Şərur-Culfa istiqamətində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 13 min 708, Naxçıvan-Məşhəd-Naxçıvan istiqaməti üzrə hərəkət edən beynəlxalq sərnişin qatarı vasitəsi ilə 287 sərnişin daşınmışdır.

Vaqonlarda və lokomotivlərdə cari təmir işləri aparılmış, baş və stansiya yollarına baxış keçirilmişdir. Xidməti ərazidəki bütün keçidlər, yol yatağı, yoldəyişən və süni qurğular yoxlanılmış, istismarda olan maşın-mexanizmlərin saz vəziyyətdə saxlanılması üçün mütəmadi olaraq yoxlamalar aparılmışdır.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

## Əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası cari ilin aprel ayında da diqqətdə saxlanılmışdır. Məşğulluq mərkəzləri tərəfindən 302 işaxtaran müxtəlif sahələrdə işlə təmin olunmuşdur ki, onların 83-ü gənclər, 9-u sağlamlıq imkanları məhdud şəxslər, 6-sı isə ünvanlı sosial yardım təyini üçün müraciət edənlərdir. Həmçinin ötən ay 33 işaxtaran müvəqqəti və mövsümi işlərə göndərilmişdir. Hesabat dövründə uzun müddət ünvanlı dövlət sosial yardımı alan 8 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara verilmişdir.

Sağlamlıq imkanları məhdud şəxslərin və tənha ahılların tibbi və sosial reabilitasiyası da diqqətdə saxlanılmış, 49 şəxsə sanatoriya və pansionatlara göndəriş verilmiş, 20 nəfər isə texniki reabilitasiya vasitələri ilə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Poqramı"nın icrası ilə əlaqədar məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən Distant Tədris Mərkəzində 22 hərəkət qabiliyyəti məhdud şagirdin və eşitmə məhdudiyyətli şəxslər üçün fəaliyyət göstərən distant tədris kursunda 7 sağlamlıq imkanı məhdud uşağın tədrisi davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Növbəti iməciliklər mütəşəkkilliklə keçirilib

***Muxtar respublikamızda ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi ümumxalq işinə çevrilib. Son illərdə diyarımızda yaşıllıq sahələrinin həcminin dəfələrlə artırılması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlərin nəticəsidir.***



Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir. Ötən həftə keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunub.

Naxçıvan şəhərinin sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarında, həmçinin "Gənclər bağı"nda yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun Daşarx-Dizə kəndləri arasında yol kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma və ağartma işləri görülüb.

Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Rayon sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışaraq Naxçıvan-Culfa magistral yolunun Nehrəm kəndi hissəsində, Çeşməbasar-Güznüt kəndləri arasında yol kənarlarında ağacların diblərini alaq otlarından təmizləyib, ağartma və suvarma işləri görüblər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilib, Əylis düzündə üzüm və qızılgül bağlarında, həmçinin digər yaşıllıq ərazilərdə ağacların dibləri alaq otlarından təmizlənib, suvarma işləri aparılıb.

Culfa rayonunda bu tədbirlər Əlincəboyu kəndlərdə yol kənarlarında salınmış yaşıllıqlarda həyata keçirilib.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Rayon mərkəzində yol kənarlarında, ümumilikdə, 2 min ədəd gül şitili əkilib.

Şahbuz rayonunda Naxçıvan-Şahbuz-Batabat magistral yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun sol hissəsində, Qaraağac kəndindəki meyvə bağında və digər ərazilərdə yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

*Ailə təsərrüfatı*

## Zəhmət bəhrəsiz qalmır

Keçən əsrin ortalarında ermənipərəst sovet rəhbərlərinin apardığı siyasət nəticəsində bir çox azərbaycanlı öz torpaqlarından zorla köçürülərək deportasiyaya məruz qaldı. Öz doğma yurdları – əzəli Azərbaycan torpağı olan Vedibasardan köçürülən və Naxçıvana pənah gətirən Həsənovların ailəsi də belələrindəndir. Köçürülən bir çox ailə kimi, onlar da müxtəlif bölgələrə yerləşdirilən zaman "Biz torpaq adamıyıq. Mümkünsə, ailəliklə bizə kəndlərdən birində torpaq verin, orada yaşayaq. Torpaqdan uzaq düşsək, yaşaya bilmərik" arzuları nəzərə alınaraq onlara Şərur rayon Danyeri kəndində torpaq verilib. Beş qardaşın ortancılı olan Yaqub Həsənov həmin torpaq sahəsində ataların "Torpaq deyir: sən mənə tər ver, mən sənə zər verim" deyiminin nə qədər düzgün olduğunu subut edib. Onunla söhbətimiz də illərdir, əziyyətini çəkib, uşaq kimi qayğısına qalıb, əzizləyib bu günə gətirib çıxardığı göyçə bağında baş tutdu:

– İlk vaxtlar bu yurd yerinin torpaqlarına yaxından bələd deyildik. Odur ki, istədiyimizə tam nail ola bilmirdik. Lakin ruhdan düşmədik. Torpağa alışdıq, təcrübəmiz artdı. İllərdir, bu bağı əkib-becərirəm, zəhmətimin qarşılığını da ikiqat alıram. Gördüyünüz bu bağdan qazandıqlarımla övladlarımı böyüdüb, onları oxudub ailə, ev-eşik sahibi etmişəm. Doqquz nəvəm var, onları da zəhmətə alışdırıram. Oğlanlarım istirahət günlərində mənimlə bərabər bu bağda çalışırlar. Ağacları budamaqda, suvarmada, meyvə yığımında mənə köməklik göstərirlər. Bağımda yarım hektar torpaqda 150 göycə ağacı var. Onların içində birillikdən tutmuş, onbeşillik göycə ağacına rast gəlmək olar. Təkcə göycə ağacı ilə də kifayətlənməmişəm. İnnab, yemişan, alma, zoğal, ərik və başqa meyvələr də becərirəm.



Yaqub dayı illərdir, göycə yetişdirməklə məşğul olduğuna görə göycə haqqında da məlumat verir:

– Göycə Naxçıvanda ən tezyetişən meyvədir. Onun adi alçadan fərqli cəhəti tam yetişənə qədər yaşıl rəngini qoruyub saxlamasıdır. Adətən, alça tam yetişəndə qızarır. Ancaq göycə belə deyil. Digər tərəfdən, bu meyvə göy-göy yeyildiyi üçün elə "göycə" adlanır. Göycə, ancaq Naxçıvanda yetişir. Bu meyvəyə ölkəmizin digər bölgələrində az-az rast gəlmək olar. Olsa belə, meyvənin dadı tamamilə dəyişir və adi alçaya çevrilir. Yazda ağacların ən tez oyananı göycədi, o, yarpaq açmamışdan əvvəl çiçəkləyir. Meyvələri mayın ortalarında yeyilməyə başlayır. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyunun axırı, iyulun ortalarında tam yetişir. Çoxillik ağaclar, adətən, 10-25 il normal məhsul verir. Hər bir ağacdan ildə, təqribən, 50 kiloqrama qədər məhsul toplayırıq. Bu meyvə ağacı şaxtayadözümlü olduğu üçün soyuq iqlimə malik olan muxtar respublikada yaxşı bar verir.

Onu da qeyd edək ki, Yaqub dayı ötən il Naxçıvan şəhərində keçirilən "Göycə" festivalında iştirak edib. Festivala çıxardığı məhsul I yerə layiq görülüb. Bu il mayın 19-da keçiriləcək növbəti festivala hazırlaşır.

Biz təsərrüfatda olan zaman suvarma işi gedirdi. Yaqub dayı üzvi gübrəni həm bitkilərin kökünə tökür, həm də su vasitəsilə axıdırdı. O bizə izah etdi ki, bu üsulla bitkinin gövdəsi daha dözümlü olur və sürətlə böyüyür.

Onun sözlərinə görə, ağaclar da uşaq kimidir, qayğısına qalmasan, əzizləməsən yaxşı bar götürə bilməzsən. Bu gün mən evimin ruzisini zəhmətlə əkib-becərdiyim torpaqdan çıxarıram. Yoldaşım da, mən də təqaüddəyik, günün çoxunu bağçılıqla məşğul oluruq. Çətin günlərimiz də, xoş günlərimiz də burada keçib, bu bağla bağlı xatirələrimiz çoxdu. Bizə kənddə torpaq veriləndə indi gördüyünüz bu bağın ərazisi tamam düzənlik idi. Təzə ailə qurmuşduq, ikimiz də gənc idik, boş, səhraya bənzəyən ərazidə nə edəcəyimizi bilmirdik. Amma böyüklərimizin köməkliyi, öz əzmimizlə burada heç nə bitməz deyilən torpaq sahəsini indi gözəlliyinə baxıb zövq aldığımız bağa çevirə bildik. İnsan ancaq zəhmətə, sevgi ilə işə yapışarsa, onu yarıda bilər, çünki zəhmət bəhrəsiz qalmır.

Bir neçə dəqiqədir ki, bizi dinləyən evin xanımı söhbətimizə qoşulur:

– Övladlarım dünyaya gələndə bu bağda hər birinin adına bir ting əkmişəm. İndi ağaclar da böyüyüb, övladlarım da. Hər dəfə torpağa əl atanda bu yurd yerinə ilk gəldiyimiz vaxtlar yadıma düşür və nəvələrimə deyirəm ki, gün gələcək bu torpağın yiyəsi siz olacaqsınız. Bax o vaxt siz də torpaqdan dördəlli yapışın. Buralar boş qalmasın ki, ona düşmən göz dikə bilməsin. Əbəs yerə deməmirlər ki, ruzisi torpaqdan olandan dərd-bəla uzaq qaçar.

Bu gün Danyerində gördüklərim, insanların həyat tərzi belə deməyə əsas verir ki, qayğı və zəhmət birbirini tamamlayanda həyatda çox şeyə nail olmaq mümkündür. Təki işə ürəkdən bağlanasan, heç bir çətinlikdən qorxmayasan.

**Ramiyyə ƏKBƏROVA**

*Nümunəvi ailələr*

# Zəngin və güclü mənəviyyatın, sevgi və iradənin ünvanı

*Qədim diyarımızda çoxəsrlik zəngin milli dəyərlərimizi özündə yaşadan, qarşılıqlı sevgi, hörmət və ehtiram nəticəsində yüksək ailə mənəviyyatı formalaşdıran, muxtar respublikada ailə dəyərlərinin qorunub yaşadılması istiqamətində görülən tədbirlərdən bəhrələnərək fiziki və mənəvi cəhətdən sağlam gələcək nəslin yetişməsində özünəməxsus rol oynayan nümunəvi ailələrimiz çoxdur. Biz də sağlam cəmiyyətimizin təməli olan belə ailələri tanımaq, onların keçdiyi yolu təbliğ etmək məqsədilə 15 may – Beynəlxalq Ailə Günü münasibətilə "Nümunəvi ailələr" rubrikası yaratdıq. Rubrikamızın ilk qonağı Məmmədovlar ailəsidir.*

Şəhərimizdə bir ünvan var... Birliyin, iradənin vəhdəti ilə möhkəmlənən, hər bir üzvü cəmiyyətdə yerini özü müəyyənləşdirən və layiq olduğu qiyməti alan ailənin yaşadığı ünvan... Ailənin dörd üzvü – ata, ana və iki oğul zəhmətsevərliyi həyatlarında başlıca amilə çevirdiklərindən çəkdikləri zəhmət onların ömür yollarına qürurverici bir iz salıb. Bu ailə ilə daha yaxından tanış olmaq üçün həmin ünvanda olduq. Evin salonunun yuxarı başında yaratdıqları bir guşədə aldıqları fəxri adların döş nişanları və vəsiqələr, hədiyyə kitabları, onların hər biri təltif və təbrik edilərkən çəkilən şəkillər yer alır. Guşəyə baxdıqca insanın cəmiyyətdəki yeri və cəmiyyətin insanın həyatındakı rolu anlayışının dolğun mənzərəsinin burada əks olunduğu görünür. Bu guşə evə daxil olanların hər biri kimi, bizə də ailə haqqında bir çox məqamları anlatdı. Ən başlıcası isə onlara göstərilən diqqət və qayğıdan irəli gələn minnətdarlıq və yaşadıqları qürur hissini...

Ailə üzvləri haqqında qısa bir arayış: ailə başçısı – Mübariz Məmmədov 1992-ci ildə Azərbaycan Texniki Universitetinin Avtonəqliyyat mühəndisliyi fakültəsini fərqlənmə diplomu ilə bitirib, ixtisası üzrə bir neçə vəzifədə çalışıb. 2016-cı ildən isə Babək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin rəisidir. 2017-ci ildə əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək ona "Naxçıvan Muxtar Respublikasının Əməkdar mühəndisi" fəxri adı verilib. Ailənin digər başçısı Rəxşəndə Rüstəmova 1990-cı ildə Azərbaycan Dövlət Dillər İnstitutunun İngilis dili fakültəsini bitirib, 1992-ci ildən Naxçıvan Qızlar Liseyində müəllimlik fəaliyyətinə başlayıb. Üç kitabı – "Adların insan xarakterinə təsiri" və ali məktəb tələbələri üçün ingilis dilindən dərs vəsaitləri işıq üzü görüb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 17 dekabr tarixli Sərəncamı ilə 2013-2014-cü tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olub.

Ailənin böyük övladı – Şərqi Məmmədov 2014-cü ildə Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbi bitirib, 632 balla Azərbaycan Diplomatiya Akademiyasının Biznesin idarəolunması fakültəsinə daxil olub, ingilis dilində təhsil alır. Hazırda 5-ci kurs tələbəsidir. Alman, ispan, ingilis dillərini yaxşı bilir. Ailənin sonbeşiyi Ramiz Məmmədov da həmin məktəbi 2006-cı ildə qızıl medalla bitirib, 645 balla Bakı Mühəndislik Universitetinin Kompüter mühəndisliyi fakültəsinə daxil olub. İngilis dilində təhsil alır, 2-ci kurs tələbəsidir.

Həmsöhbət olduğum ailə üzvlərinin hər biri muxtar respublikamızda son 20 ildə həyata keçirilən böyük quruculuq işləri, bütün sahələrdə yaradılan əsaslı dəyişikliklər, eləcə də əməyi və zəhməti ilə seçilən insanlara göstərilən dövlət qayğısı barədə ağızdolusu danışdı. Bütün bunların blokada şəraitində yaşayan insanların rifah halının gündən-günə yaxşılaşdırılmasına xidmət etdiyini bildirdilər. Bu barədə Mübariz müəllim belə dedi: – Bu gün böyük qürur hissi duyuram ki, muxtar respublikamız inkişaf edir, gözəlləşir. Burada insanların rahat yaşaması üçün hər cür şərait var. Dünyanın əksər əra-



zilərində müharibələrin tüğyan etdiyi, insanların aclıqla qarşılaşdığı bir zamanda belə sakit, təmiz, təminatlı diyarda yaşadığımız üçün işimdə, əməyimdə fərqlənənlərə dövlət qayğısı göstərildiyinə görə ailəm adından muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

Söhbətə ailənin böyük oğlu Şərqi qoşulur: – Hər il 500-dən artıq bal toplayan tələbələrlə Ali Məclis Sədrinin görüşü keçirilir, onlar mükafatlandırılırlar. Mən və qardaşım da bu tədbirlərin iştirakçıları olmuşuq. O görüşün xoş təəssüratlarını hər zaman xatırlayacağıq. Bakıda eşidəndə ki, Naxçıvan şəhəri 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilib, həqiqətən, sevincimin həddi-hüdudu olmadı. Bu, belə də olmalıydı. Naxçıvanda gənclərə göstərilən diqqət, onların təhsil almaları, yüksək vəzifələrdə çalışmaları üçün yaradılan şərait haqqında bütün ölkə gəncləri məlumatlıdırlar. Buna görə də onlar Naxçıvan şəhərini bu statusa layiq bildilər.

İnsan çalışdığı sahəyə, işinə sevgi və zəhmətlə yanaşırsa, əməyi diqqətdən kənarda qalmır. Zəhmətsevərliyinə görə əməyi qiymətləndirilən Rəxşəndə xanımla fəaliyyəti barədə söhbətləşərkən o, sözə belə başladı: – Kim peşəsini sevərsə, uğur onunla qoşa addımlayacaqdır. Hər il neçə-neçə şagirdimin tədris etdiyim ingilis dilini mənimsəyərək ali məktəblərə qəbul imtahanlarında bu fənn üzrə yüksək bal toplaması mənim ən böyük uğurumdur. Dil öyrənmək və öyrətmək çətindir. Ona görə də dərs prosesini fərqli qurur, əlavə vəsaitlərdən istifadə edirəm. Bütün bunların bəhrəsini görəndə isə təbii ki, sevincimin həddi-hüdudu olmur. Əməyimə verilən qiymət isə bir müəllim kimi məsuliyyətimi ikiqat artırıb. "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olduqdan sonra varqüvvəmlə, səylə çalışıram ki, bu etimada yüksək səviyyədə cavab verə bilim.

Mübariz müəllimdən çalışdığı sahədə görülən işlər barədə soruşduqda o, belə cavab verdi: – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarına əsasən artıq bir neçə ildir ki, suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilir. Muxtar respublikada mütərəqqi suvarma sistemlərinin qurulması diqqət mərkəzində saxlanılır. Su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, torpaq sahələrini yeni əkin dövriyyəsinə daxil etmək məqsədilə yeni qapalı suvarma şəbəkələri tikilir, drenaj xətləri çəkilir. Bu məqsədlə rəhbərlik etdiyim kollektiv tərəfindən 2016-cı ildə Kəngərli rayonunun Böyükdüz kəndində 117, 2017-ci ildə 407 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsi tikilib, hazırda isə elə həmin ərazidə 410 hektar sahənin suvarılması üçün qapalı suvarma sisteminin yaradılması işini həyata keçiririk. Məncə, harada çalışdığından asılı olmayaraq, işin düzgün qurulmasında nizam-intizam başlıca amildir. Belə olanda görülən iş də keyfiyyətli olur. Mən həmişə buna çalışmışam.

Bəs, görəsən, bu ailənin nümunəviliyinin səbəbi nədədir? Bu sualı Rəxşəndə xanım belə cavablandırdı: – Məhəbbəti dünyanın xilaskarı hesab edirlər. Bu, həqiqətən, belədir. Elə ailənin formalaşmasının, burada hər işin öz ahəngində olmasının və ailənin uzunömürlülüyünün də təməlində qarşılıqlı hörmət və ehtiram dayanır. Dahi yazıçı Teodor Drayzer deyirdi ki, ancaq böyük məhəbbət ailə həyatındakı anlaşılmazlıqları aradan qaldıra bilər. Bizim ailə məhəbbətlə qurulub, sonra öz sevgimizi övladlarımızla paylaşmışıq. Onların təhsilli, vətənpərvər, milli dəyərlərimizə sadiq, ümumilikdə, cəmiyyət üçün yararlı insan olmalarına çalışmışıq. Mən həyat təcrübəmə əsaslanaraq demək istəyirəm ki, o ailədə ki məhəbbət, səmimiyyət var, bu insanın iş həyatında da özünü göstərir. İnsan ailəsi, övladları kimi, işini də sevir.

Rəxşəndə xanımın ailədə uşaqların tərbiyəsi ilə bağlı fikirlərini Mübariz müəllim təsdiqləyərək deyir: – Övladlarımın hər ikisinin vətənpərvər olması üçün biz, ilk növbədə, onların müəllimlərinə minnətdarıq. Qaldı ki, valideynlərin bu sahədə üzərinə düşən vəzifələrə, çalışmalıyıq ki, uşaqları dürüst yetişdirə biləк. Mən həmişə onlara tövsiyə edərdim ki, yalan danışmayın. Çünki insan yalanın üstü açılanadək onun stresini, sonra isə xəcaləti yaşayır. Övladların təhsilli olması isə ata-ananın xoşbəxtliyidir. Məncə, valideynin uşağa qazandıracağı ən böyük kapital ona verdiyi təhsildir.

Təhsilləri və seçdikləri ixtisasla bağlı sualımıza Şərqi kapitalizm dövründə biznesin idarəolunması sahəsi, Ramiz isə müasir dövrdə yeni texnologiyaların mühəndisliyi üzrə mütəxəssislərə ehtiyacın çox olduğunu vurğulayaraq, seçimlərini özləri etsələr də, təhsillərində valideynlərinin böyük rol oynadığını bildirdilər. Bu barədə Ramiz fikrini belə tamamladı: – Riyaziyyatı gözəl bildiyimiz üçün atamıza, ingilis dilinə dərindən yiyələndiyimiz üçün anamıza minnətdarıq. Ümumilikdə isə hər şey üçün onlara borcluyuq. Çalışacağam ki, gələcəkdə atam kimi ailə başçısı ola bilim.

Muxtar respublikamızdakı çoxsaylı nümunəvi ailələrdən biri ilə tanış olarkən bu ailənin hər fərdinin ayrı-ayrılıqda əsl Azərbaycan ailəsinə məxsus yerini, vəzifəsini, bunun əsasında isə cəmiyyətdəki ictimai mövqeyini yaxşı müəyyənləşdirdiyini gördük. Bu ailənin simasında zəngin mənəviyyatın gücü, öz sevgi və iradəsi ilə, milli adət-ənənələrimizə söykənməklə müasir ailə formulunu yaradan atanı, ləyaqətli həyat yoldaşı, qayğıkeş, ailədə birlik yaradan ananı, ən böyük arzuları bu ailədə aldıqları tərbiyəni gələcəkdə quracaqları ailələrində davam etdirmək olan və valideynlərinin fəxr etdikləri iki övladı tanıdıq. Onların hər birinə cansağlığı, ömür yolunda daha böyük uğurlar diləyib bu ünvandan ayrılırıq. Yolboyu düşüncələrimiz isə bundan ibarət oldu: nə xoş ki Naxçıvanda belə ailələrin sayı çoxdur.

**Mətanət MƏMMƏDOVA**

---

***May ayının 29-dan 31-dək Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan ilə Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Türkiyə-Azərbaycan döyüş atışlı birgə tabor tapşırıq qüvvəsi təlimi keçiriləcək. Təlimə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.***

# "Ümid" körpüsündə Azərbaycan-Türkiyə Dövlət bayraqlarının dəyişmə mərasimi olub



May ayının 10-da Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən bayraq təhvil verildikdən sonra bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə – Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda Türkiyə Respublikasının bayraq taqımı da Qars şəhərindən mərasimin keçiriləcəyi Sədərək sərhəd-keçid məntəqəsinə doğru hərəkət edib.

May ayının 13-də "Ümid" körpüsündə Azərbaycan-Türkiyə Dövlət bayraqlarının dəyişmə mərasimi olub. Mərasimdə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Bayraqdəyişmə mərasimi başa çatdıqdan sonra Əlahiddə Ümumqoşun Ordunun təlimə cəlb edilmiş şəxsi heyət və hərbi texnikaları Türkiyə Respublikasının Qars şəhərinə yola salınıb.

**Nəriman NƏCƏFOV**

---

# Mülki Müdafiə Alayının gənc əsgərləri Vətənə sədaqət andı içiblər

***Naxçıvan Muxtar Respublika Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin hərbi andiçmə mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız meydana gətirilib.



Sonra gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Andiçmə mərasimində çıxış edən alay komandiri, polkovnik-leytenant Azadil Hüseynov hərbi andın əhəmiyyəti barədə məlumat verib, gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib.

Mərasimdə çıxış edən baş leytenant Nicat Seyidzadə, əsgər Əhməd Əhmədov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, valideyn Cabbar Əliyev gənc əsgərləri təbrik ediblər. Mərasimdə Azərbaycan əsgərinin rəşadət və igidliyindən danışılıb. Əminliklə bildirilib ki, gənc əsgərlər nümunəvi xidməti, təlim-tərbiyəsi ilə hərbi hissənin adını yüksək tutacaq, əsgəri borcu şərəflə yerinə yetirəcək, baş verə biləcək fövqəladə hallar zamanı zərərçəkmiş insanların xilas edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov çıxışında Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin əhəmiyyətini vurğulayıb.

Gənc əsgərlər Vətənimizə, xalqımıza layiqli əsgər olacaqlarına, hərbi anda həmişə sadiq qalacaqlarına və verilən tapşırıqları yerinə yetirəcəklərinə söz veriblər.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

---

# Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı növbəti tədbir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq aztəminatlı ailələrin özünüməşğulluqlarının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***



Bu məqsədlə Şərur, Babək, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonları üzrə, ümumilikdə, 12 aztəminatlı ailə müəyyənləşdirilib. Həmin ailələrdən 7-nə yanında balası olan iribuynuzlu mal-qara, 2-nə yanında balası olan 10 baş xırdabuynuzlu heyvan, 2-nə fərdi xalça toxumaq, 1-nə isə arı yeşiklərinin düzəldilməsi üçün avadanlıqlar verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların sosial reabilitasiyası və məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Sonra aztəminatlı ailə təmsilçilərinə mal-qara və avadanlıqlar verilməsi ilə bağlı sənədlər təqdim olunub.

Kəngərli rayonunun Xok kənd sakini Məhəmmədəli Fərəcov göstərilən qayğıya görə minnətdarlığını bildirib, ailə təsərrüfatından səmərəli yararlanacaqlarını diqqətə çatdırıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən aztəminatlı ailələrə özünüməşğulluğun təmin edilməsi üçün mütəmadi olaraq müvafiq köməklik göstərilir.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada daha bir möhtəşəm beynəlxalq turnir keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirlikləri, həmçinin Kikboksinq federasiyalarının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən kikboksinq üzrə beynəlxalq peşəkar turnir keçirilib.***





Turnirin açılış mərasimindən əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Turnirin açılış mərasimində çıxış edən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov iştirakçıları salamlayaraq ölkəmizdə, eləcə də muxtar respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından danışıb, idmanın maddi-texniki və təşkilati-hüquqi bazasının xeyli möhkəmləndiyini deyib.

Müasir idman infrastrukturunun formalaşdırılması nəticəsində qədim diyarda çoxsaylı beynəlxalq yarışların keçirilməsinin artıq ənənə halını aldığını vurğulayan nazir turnir iştirakçılarına uğurlar arzulayıb.

Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Milli Məclisin deputatı Adil Əliyev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir, gündən-günə daha da gözəlləşir. Muxtar respublikada idman sahəsinə xüsusi qayğı və diqqət göstərilir. Müasir idman infrastrukturu burada nüfuzlu idman tədbirlərinin keçirilməsinə şərait yaradır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən kikboksinq üzrə beynəlxalq peşəkar turnirin Naxçıvanda keçirilməsi təsadüfi deyil. Çünki muxtar respublika artıq beynəlxalq idman yarışlarına uğurla ev sahibliyi edən məkan kimi böyük şöhrət qazanıb. Adil Əliyev vurğulayıb ki, Naxçıvan bu gün həm də idmanın inkişafı baxımından Azərbaycanın digər bölgələrinə nümunədir. O, turnirin keçirilməsində göstərilən dəstəyə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov vurğulayıb ki, müstəqil ölkəmizdə idmanın inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət idman siyasəti nəticəsində Azərbaycanda güclü idman potensialı formalaşıb. Bu dövlət siyasəti, o cümlədən maddi-texniki bazanın möhkəmləndirilməsi, müasir olimpiya-idman komplekslərinin və digər idman qurğularının inşası ölkəmizdə ən mötəbər beynəlxalq yarışların, habelə Avropa və dünya çempionatlarının yüksək səviyyədə təşkilinə imkan yaradır. Təsadüfi deyil ki, ötən il ölkəmizdə 55-dən çox beynəlxalq yarış keçirilib.

Çıxışlardan sonra turnir açıq elan olunub.

Əvvəlcə peşəkarlar arasında reytinq döyüşləri keçirilib. Bu döyüşlərdə 54 kiloqram çəki dərəcəsində Anar Məmmədov (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti), 63,5 kiloqram çəki dərəcəsində Ruslan Əliyev ("Qızıl ələk" idman klubu), 67 kiloqram çəki dərəcəsində Arzuman Qədimov ("Naxçıvan" idman klubu), 71 kiloqram çəki dərəcəsində Nicat Vəliyev ("Röyal" idman klubu), 86 kiloqram çəki dərəcəsində isə Etibar Qədimov ("Şindi" idman klubu) qələbə qazanıblar.

Açılış mərasiminin bədii hissəsində Bakı şəhərindən dəvət olunmuş müğənni Elton Hüseynəliyevin ifasında səsləndirilən musiqi nömrələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Daha sonra beynəlxalq turnirin görüşlərinə start verilib.

Gərgin keçən mübarizə nəticəsində 63,5 kiloqram çəki dərəcəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətini təmsil edən Zöhrab Əzimov türkiyəli Ali Deveciyə, 65 kiloqram çəki dərəcəsində "Neftçi" idman klubunun yetirməsi Turan Qafarov belaruslu Andrey Chyhileichyka, 71 kiloqram çəki dərəcəsində "Samux" idman klubunun yetirməsi Elxan Əliyev rusiyalı Artyom İsmayılova, 86 kiloqram çəki dərəcəsində "Naxçıvan" idman klubunun yetirməsi Orxan Məlikov ukraynalı Aleksey Verşininə, 91 kiloqram çəki dərəcəsində "Quba" idman klubunun yetirməsi Asəf Aslanov belaruslu German Vandenvinə, +100 kiloqram çəki dərəcəsində isə "Prorinq" idman klubunun yetirməsi Fuad Həşimi Ukrayna təmsilçisi Maksim Hreitsara qalib gəlib.

Turnirin super döyüşlərində 75 kiloqram çəki dərəcəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətini təmsil edən Ramal Aslanov Türkiyə təmsilçisi Mukremin Gülərə məğlub olub. 100 kiloqram çəki dərəcəsində isə "Orion" idman klubunun təmsilçisi Bəhram Rəcəbzadə Gürcüstan təmsilçisi Khvicha Kokuaşvili üzərində qələbə qazanıb.

Qaliblərə təşkilatçılar tərəfindən kubok və diplomlar təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Daxili Təhlükəsizlik İdarəsinin rəisi İmaməddin Aslanov, kikboksinq üzrə dünya çempionu Şahin Mahmudov, Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbov və müğənni Elton Hüseynəliyev kikboksinq idman növünün inkişafında göstərdikləri xidmətlərə görə təltif ediliblər.

Bununla da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən kikboksinq üzrə beynəlxalq peşəkar turnir başa çatıb.

**Ceyhun MƏMMƏDOV**

***Məlum olduğu kimi, aprel ayının 28-29-da Bakı şəhərində Azərbaycan Respublikası Vergilər Nazirliyi və Auditorlar Palatası da daxil olmaqla, nüfuzlu birlik və təşkilatların dəstəyi ilə 2-ci Milli Mühasibat Forumu keçirilib.***

olan namizədlərin sərbəst hazırlığı üçün mövzulara aid test tapşırıqları və praktik məsələlər verilib. Dərs vəsaiti iqtisadi ixtisaslar üzrə təhsil alan tələbələr, magistrlər, doktorantlar, müəllimlər, mühasiblər, iqtisadçılar, vergi sistemi işçiləri, həmçinin vergitutmanın

## *"Vergi məcəlləsinin xüsusi hissəsinin praktik izahı"* adlı kitabın təqdimatı olub



Həmin forumda mühasibatlıq və vergi sahəsində yazılmış 50-yə yaxın kitab müsabiqəyə buraxılıb. Vergi qanunvericiliyi sahəsində yazılmış kitablar arasında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşı və "Naxçıvan" Universitetinin müəllimləri İsmayıl Bağırovun və Təbiət Tağıyevin "Vergi məcəlləsinin xüsusi hissəsinin praktik izahı" adlı kitabı birinci yerə layiq görülüb. Dünən "Naxçıvan" Universitetində həmin kitabın təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq müəllifləri təbrik edib, kitabın elmi məziyyətlərindən danışıb. Bildirilib ki, dərs vəsaitində Azərbaycan Respublikasının vergi sisteminin strukturu, ölkədə fəaliyyət göstərən bütün vergi növləri maddələrlə izah edilib, vergilərin hesablanması sahəsində müxtəlif məsələlərin həlli nümunələri öz əksini tapıb. Hər bir fəslin sonunda isə istifadəçilərin, xüsusən də vergi orqanlarında işləmək arzusunda əsaslarını müstəqil surətdə öyrənmək istəyənlər üçün nəzərdə tutulub.

Sonra Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə müdiri Abbas Səfərovun, Naxçıvan Dövlət Universitetinin Dünya iqtisadiyyatı kafedrasının müdiri Ceyhun Mahmudovun və "Naxçıvan" Universitetinin İqtisadiyyat kafedrasının müəllimi Zahid Qənbərovun çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, yeni nəşr Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsində vergi orqanı sahəsində çalışan əməkdaşlara yaradılmış işgüzar şəraitin bəhrəsidir. Bu kitab vergi qanunvericiliyi ilə bağlı qiymətli dərs vəsaiti olmaqla yanaşı, bu sahə ilə maraqlanan vətəndaşların, vergi sahəsində fəaliyyət göstərən əməkdaşların stolüstü kitabına çevriləcəkdir.

Sonda çıxış edən müəlliflər göstərilən qayğıya, yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlıqlarını bildiriblər.

**Nuray ƏSGƏROVA**

## Dövlət Gömrük Komitəsinin futzal komandasından növbəti qələbə



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 26-cı ildönümü münasibətilə ölkəmizin gömrük orqanları arasında təşkil olunan futzal çempionatına yekun vurulub.

Aprel ayının 12-də start götürən ənənəvi yarışda, ümumilikdə, 12 komanda mübarizə aparıb. Oyunlar Azərbaycan Texniki Universitetinin Bakı şəhərindəki idman sarayında keçirilib. Mübarizəyə ikinci mərhələdən qoşulan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası "Azərterminalkompleks Birliyi", "Tovuz Gömrük İdarəsi" və "Sumqayıt Baş Gömrük İdarəsi" komandaları ilə birgə "B" qrupunda mübarizə aparıb. Müvafiq olaraq 9:3, 11:0 və 7:1 hesablı qələbələrlə qrupdan birinci çıxan komandamız yarımfinal görüşündə "Astara Gömrük İdarəsi"ni məğlub edib – 10:1.

May ayının 10-da baş tutan final qarşılaşmasında "Naxçıvan" komandasının rəqibi "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi" olub. Hər iki komandanın əzmkarlığı nümayiş etdirdiyi oyun gərgin və maraqlı mübarizə şəraitində keçib. Görüşün əvvəlində qapısından iki top buraxan komandamız fasiləyə qədər tarazlığı bərpa edib. Futzalçılarımızdan İlqar İsmayılov və Orxan Məmmədov rəqib qapısına yol tapmağa müvəffəq olublar. İkinci hissənin əvvəlində də hesabda geri düşən komandamız sona 2 dəqiqə qalmış Kamil Hacıyevlə qələbə topunu vurub – 3:4.

Final oyunundan əvvəl keçirilmiş üçüncülük uğrunda qarşılaşmada isə Sumqayıt Baş Gömrük İdarəsinin komandası Astara Gömrük İdarəsinin futzalçılarından üstün olub.

Sonra ilk üç yeri tutan komandaların və fərqlənənlərin mükafatlandırılması mərasimi keçirilib. Komandamızın üzvlərindən Rahil Tahirli çempionatın "Ən yaxşı qapıçı"sı, final qarşılaşmasında dubl edən Orxan Məmmədov "Ən məhsuldar oyunçu" seçilib. Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası komandamızın üzvlərindən Ramazan Ağayevi "Ədalət prinsiplərinə sadiq idmançı" nominasiyası üzrə mükafatla təltif edib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov komissiyanın fəxri kubokuna layiq görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Elan

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər arasında "Ailə dəyərlərimiz film və fotolarda" III yaradıcılıq müsabiqəsi elan edir.

Müsabiqədə Naxçıvan Muxtar Respublikasında yaşayan telejurnalist və rejissorlar, ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin tələbə və şagirdləri, həvəskar və professional fotoqraflar iştirak edə bilər. Müsabiqə "Ən yaxşı film" və "Ən yaxşı foto" nominasiyaları üzrə keçirilir.

Müsabiqənin keçirilməsində məqsəd gənc ailələrdə ailə dəyərlərinin qorunub saxlanılmasını təbliğ etmək, ailə dəyərlərimizi film və fotolara köçürməklə yaşatmaq, film və fotolar vasitəsilə ailə dəyərlərimizə bağlı olan ailələrin adət-ənənələrini ictimaiyyətə, yeniyetmə və gənclərə təqdim etmək, ailə səadətinin açarı kimi ailə dəyərlərini işıqlandırmaq, yeniyetmə və gənclərdə yaradıcılıq qabiliyyətini aşkara çıxarmaq və bədii zövqü inkişaf etdirməkdir.

Yaradıcılıq qabiliyyəti olan hər bir yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları aşağıdakılardır:

- müsabiqənin məqsədinə uyğunluğu və şərtlərinə cavab verməsi;
- ideyanın, kompozisiyanın orijinallığı və yaradıcı yanaşma;
- işin təsiredici qüvvəyə malik olması və asan qavranılması;
- keyfiyyəti.

Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:

- film (5 dəqiqədən artıq olmaq şərti ilə) CD formatda (1 ədəd diskdə);
- foto (5 ədəddən artıq olmamaq şərti ilə) CD formatda (1 ədəd diskdə), 20x30 sm və daha böyük ölçülü rəngli və ya ağ-qara kağız formatda.

Müsabiqəyə təqdim edilən işlərin mövzuları bunlardan ibarətdir:

- xalqımızın ailə dəyərləri, adət-ənənələri;
- ənənəvi ailə münasibətləri və ailə mədəniyyətinin təbliği;
- ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri;
- nümunəvi ailələrin təbliği, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti;
- ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı;
- qohum və erkən nikahların, zərərli vərdişlərin yaratdığı fəsadlar;
- övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı;
- qonaqpərvərlik ənənələrimizin təbliği və sair.

Müsabiqədə iştirak etmək istəyən şəxslər hazırladıqları film və ya fotoları, müvafiq anketi şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə 2018-ci il iyun ayının 29-dək Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər. Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:

*Birinci yer (1 nəfər) – Diplom və pul mükafatı (200 manat)*

*İkinci yer (1 nəfər) – Diplom və pul mükafatı (150 manat)*

*Üçüncü yer (1 nəfər) – Diplom və pul mükafatı (100 manat)*

*Həvəsləndirici yer (3 nəfər) – Diplom və qiymətli hədiyyə*

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev 42,***
***Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi***
***Əlaqələndirici şəxs: Könül Babayeva***
***Telefon: 545-39-75***


ŞƏRQ qapısı

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 358**